UOT 94 (479.24)

# MÜASİR DÖVRDƏ AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNİN NƏZƏRİ ƏSASLARI

**A.K.ƏCƏMOV**
***AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu***
***a_ajamov@yahoo.com***

*Məqalədə müasir dövrdə Azərbaycan Respublikasının xarici siyasətinin nəzəri əsasları araşdırılır, gənc dövlət olan Azərbaycanın xarici siyasətinin əsas vəzifələri ətraflı tədqiq edilir. Eyni zamanda, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycanın xarici siyasətindəki nəzəri və praktiki fəaliyyətinə xüsusi diqqət yetirilir.*

**Açar sözlər**: xarici siyasət, "Əsrin müqaviləsi", beynəlxalq inteqrasiya, diplomatik münasibətlər

Azərbaycan 1991-ci ildə milli dövlət müstəqilliyini qazandıqdan sonra xarici dövlətlərlə müxtəlif sahələrdə münasibətlər qurmağa başladı. Bu məqsədlə əvvəlcə ikitərəfli, sonra isə çoxtərəfli müqavilələrin imzalanması və münasibətlərin qurulması yönündə səmərəli, milli mənafe və maraqlarımıza cavab verən ciddi addımlar atıldı. Müstəqillik yoluna qədəm qoyandan sonra dövlətimizin xarici siyasət idarəsi qarşısında duran ən əsas və ümdə vəzifələrdən biri də xarici siyasətin nəzəri əsaslarının hazırlanması idi. Bu ciddi, həm də mürəkkəb vəzifənin həlli onun müəlliflərindən əsaslı nəzəri hazırlıq və bu sahədə peşəkar təcrübə tələb edirdi. Problemin həllini şərtləndirən faktorlardan biri də xalqımızn uzun illər boyu əsarətdə yaşaması və onun milli diplomatiya formalaşdırmaq imkanından məhrum olması idi. Təbii ki, bu sahədə lazımi milli elmi tədqiqatların olmaması da vəziyyəti çətinləşdirirdi. Aydın məsələ idi ki, dövlətin xarici siyasətinin nəzəri əsaslarının hazırlanması üçün xarici siyasət və beynəlxalq münasibətlərin incəliklərini, dövlətlərarası münasibətlərdə açıq və gizli şəkildə təzahür edən prosesləri dərindən təhlil etmək sahəsində ciddi nəzəri hazırlıq tələb olunurdu. Eyni zamanda dövlətin daxili siyasətini də nəzərə almaq lazım idi. Burada dövlətin xarici siyasətinin konsepsiyası, strategiya və taktikasının əsas məqsəd və vəzifələri müasir dövrün tələblərindən çıxış edilərək müəyyənləşdirilməli idi. Bu məsələdə əsas vəzifə, heç şübhəsiz, Azərbaycanın dövlət suverenliyini qorumaqdan, Ermənistan tərəfindən işğal edilmiş ərazilərimiz üzərində dövlətimizin yurisdik-

siyasını bərpa etməkdən, ölkədə uzun müddətdən bəri yığılıb qalmış ciddi sosial-iqtisadi problemlərin həllinə yönəlmiş münasib xarici siyasət kursunun həyata keçirilməsindən ibarət idi. Göründüyü kimi, dövlətimizin xarici siyasətinin nəzəri əsaslarını hazırlamaq ölkəmizin xarici əlaqələrinin və milli mənafeyimizə cavab verən başlıca istiqamətlərinin obyektiv, düzgün müəyyən olunması üçün zəruri şərtlərdən biri idi [1]. Əsas məsələ ölkəmizin müstəqilliyini qorumaq, təbii sərvətlərimizin talan olunmasına imkan verməmək idi. Nəzərə almaq lazım idi ki, təbii resurslar baxımından Azərbycan zəngin bir ölkədir, ələxüsus neft və qaz mənbələri ilə zəngin olan ölkə olduğundan böyük dövlətlərin və onlara məxsus transmilli şirkətlərin hədəfi və maraq dairəsində idi. Məlum məsələdir ki, dünyanın aparıcı neft şirkətləri özünün maliyyə imkanlarına və neft sənayesi sahələrinin idarə olunmasında zəngin təcrübəyə malik olduqlarına görə mənsub olduqları ölkələrin xarici siyasət və beynəlxalq əlaqələrinin qurulması, tənzimlənməsi və istiqamətləndirilməsinə açıq və qapalı formada təsir etmək imkanlarına malikdirlər. Bu şirkətlər dövlətin maddi maraqlarını təmin etdikləri üçün hədəf dairəsində olan neft ixracatçısı olan ölkələrdə mənsub olduqları dövlətlərin mövqeyinin möhkəmləndirilməsində fəal rol oynadıqlarına görə bu şirkətlərin iqtisadi maraqları dövlət tərəfindən qorunur. Göründüyü kimi, dövlətlə transmilli şirkətlərin maraqları üst-üstə düşür və bir növ dövlətlə transmilli şirkətlərin calağından təşəkkül taparaq formalaşan bu birlik müasir dövrdə yeni müstəmləkəçilik sisteminin aparıcı ünsürünə çevrilir. Beynəlxalq münasibətlərin neqativ reallığını özündə əks etdirən bu prosesin keşiyində yeni müstəmləkəçi dövlətlərin hərbi qüdrəti və beynəlxalq aləmdəki siyasi nüfuzu durur. Heç şübhəsiz, Azərbaycanın xarici siyasətinin nəzəri əsasları hazırlanarkən beynəlxalq münasibətlərdə cərəyan edən və qloballaşma ilə birbaşa əlaqəsi olan bu prosesin bütün çalarları nəzərə alınmalı, ölkəmizin maraqlarını özündə əks etdirən, qarşılıqlı fayda və ədalət prinsiplərinə söykənən, bu prinsiplərdən çıxış edən xarici siyasət konsepsiyası hazırlanmalı idi. Təbiidir ki, bu məsələdə milli mənafe və dövlət maraqları əsas götürülməli idi. Qeyd edək ki, bu istiqamətdə əməli addımlar Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra atıldı. Yalnız bundan sonra Azərbaycanın xarici siyasətinin nəzəri əsasları hazırlanarkən, xülasə formasında yuxarıda göstərilən mülahizə və müddəalar nəzərə alındı və ölkəmizin xarici əlaqələrini özündə əks etdirən konsepsiya və ona söykənən prinsiplər Azərbaycan Respubilkasının Konstitusiyasında da öz ifadəsini tapdı. Belə ki, bu ali dövlət sənədinin 10-cu maddəsində deyilir: "Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur" [2]. Bu konsepsiya əməldə həyata keçirilməyə başladı və əldə rəhbər tutuldu. Azərbaycan Respublikasının xarici siyasət konsepsiyasının və ona söykənən əsas prinsiplərin müəyyənləşdirilməsində həlledici rol Ümummilli Lider Heydər Əliyevə məxsusdur. 1993-cü ildə H.Əliyevin ölkə prezidenti seçilməsindən sonra Azərbaycanın beynəlxalq münasibətlər sisteminə sivil

qaydada inteqrasiyası prosesi başlayır. H.Əliyevin məqsədyönlü diplomatiyası sayəsində bir sıra Qərb və Şərq ölkələri ilə münasibətlərdəki anlaşılmazlıqlar və şübhələr aradan qaldırıldı, ikitərəfli və çoxtərəfli əməkdaşlığın hüquqi bazasını təşkil edən çoxsaylı müqavilə, saziş və digər sənədlər imzalandı. Nəticədə Azərbaycan Respublikasının xarici siyasəti iqtisadiyyata, sənaye və kənd təsərrüfatına sərmayə qoymaq üçün geniş imkanlar açdı. Belə siyasət xarici iqtisadi əlaqələrdə də tez bir zamanda öz bəhrəsini verdi və bu da bir sıra xarici ölkələrin aparıcı neft şirkətləri ilə 1994-cü ildə Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının istismarına imkan verən "Əsrin müqaviləsi"nin imzalanması ilə nəticələndi. Belə bir müqavilənin imzalanması ölkəmizin beynəlxalq iqtisadi əlaqələr sistemində mövqeyinin möhkəmlənməsinə və dövlətimizin beynəlxalq birliklə əməkdaşlığına imkan və səmərəli şərait yaratdı [3].

Qeyd etmək lazımdır ki, dövlətimizin xarici siyasət konsepsiyasının hazırlanması prosesində beynəlxalq münasibətlərin inkişaf perspektivlərinə də qısa bir nəzər salmaq məqsədəuyğundur.

Buraya daxildir:

–dünyanın maddi (iqtisadi, hərbi, geosiyasi, demoqrafik, texniki və s.) və mənəvi (ideoloji, hüquqi, informasiya, etik və s.) amilləri, onların subyektlərarası münasibətlərə təsiri;

–BMT-nin üzvü olan dövlətlərin faktorlararası diplomatik, strateji, sosial, mədəni, elmi və s. münasibətləri, bu münasibətlərin əsasını təşkil edən mənəvi-əxlaqi, hüquqi, sosial-mədəni və s. normalar;

–beynəlxalq aləmdə qərarların qəbul olunması, əməkdaşlıq, danışıqlar, münaqişələr və proseslər;

–BMT-nin üzvü olan ölkələrin dövlətlərarası münasibətlərinin vəziyyəti, bu əlaqələrə təsir göstərən faktorlar (dünyada baş verən transmilli proseslər və onların dövlətlərarası əlaqələrə və bütövlükdə dünya siyasətinə təsiri) [4].

Göründüyü kimi, beynəlxalq münasibətlərin bərqərarı və inkişafına çoxsaylı amillər təsir göstərir. Dünya birliyinə daxil olan ölkəmizin xarici əlaqələri də bu təsir mexanizminə məruz qaldığından bu amillər xarici siyasət konsepsiyası hazırlanarkən nəzərdən qaçırılmır. Bunlar ölkədaxili və ölkələrarası münasibətlərə təsir edən amillər, hadisələr, normalar, proseslər, onlar arasındakı daxili əlaqə və bağlılıq və s.-dir.

Qeyd edək ki, bu amillər içərisində qloballaşma prosesi də mühüm rol oynayır. XX əsrin sonlarından başlayaraq müasir beynəlxalq münasibətlərin əsas inkişaf təmayüllərindən birinə çevrilən qloballaşma prosesi dünyada bir çox mütəxəssislərin diskussiya predmetinə çevrilmişdir. Qloballaşmanın mahiyyətini və ona təsir edən amilləri tədqiqatçılar müxtəlif mövqelərdən və formalardan izah etsələr də, bu barədə ən çox qəbul olunan aşağıdakı fikirlərdir:

–qloballaşma tarixi və obyektiv porsesdir, xalqlar və dövlətlər arasında əsrlərlə gedən beynəlxalq əmək bölgüsünün təkmilləşməsi və dərinləşməsi nəticəsində baş vermişdir;

–qloballaşma istehsal münasibətlərinin dəyişməsi və inkişaf etmiş ölkələrin yeni sosial-iqtisadi münasibətlərinin vahid bir modeli kimi bütün dünyada tətbiqidir; dünya dövlətlərinin siyasi quruluşunda baş verən dəyişikliklər, sosializmin süqutu nəticəsində ölkələrin demokratik transformasiyası, dünya siyasətinin təkmilləşməsi qloballaşmanın əsas faktorlarından biri hesab olunur;

–qloballaşma insanların ağlının, qabiliyyətinin ümumiləşdirilməsi və bütün bəşəriyyətə müxtəlif variantlar şəklində (alternativ seçim imkanları) təqdim edilməsidir; dünyada yaranan ümumdünya əmtəə, xidmət və maliyyə bazarının, iqtisadiyyatın, ticarətin, əmək resurslarının (işçi qüvvəsi də daxil olmaqla), kütləvi informasiya vasitələrinin və demokratik institutların qloballaşması və s.).

Beləliklə, müasir dünya nizamını xarakterizə edən əsas tendensiyalardan biri qloballaşmanın vüsət alması və qarşısıalınmaz prosesə çevrilməsi, digəri isə bu prosesi daha təhlükəsiz etmək, qloballaşmaya cəlb edilmiş kapitalı və avadanlıqları qorumaq, onun tətbiqini daha da asanlaşdırmaq üçün beynəlxalq aləmin göstərdiyi səydən ibarətdir [5].

Müasir beynəlxalq münasibətlərin və dünya siyasətinin dövlətlərarası əlaqələr müstəvisində təzahür edən əsas tendensiyalarından biri də beynəlxalq inteqrasiya hesab olunur. Bu proses, əsasən müəyyən bölgələrdə həyata keçirildiyinə görə, siyasi ədəbiyyatda o beynəlxalq regional inteqrasiya adı altında şərh olunur. Regional inteqrasiya mahiyyətinə görə obyektiv şəkildə, lakin kortəbii baş verən bir proses olsa da, məqsədlərinə görə dövlətlərin düşünülmüş həyata keçirdiyi və tənzimlənən qarşılıqlı fəaliyyət növü hesab olunur. Bu prosesin təzahürünə və güclənməsinə həm region ölkələrində mövcud olan siyasi-iqtisadi daxili amillər və həm də beynəlxalq münasibətlərdə təzahür edən təmayüllər təkan verir.

Mühüm geosiyasi məkanda yerləşən Azərbaycan Respublikasının 1991-ci il oktyabrın 18-də öz dövlət müstəqilliyini bəyan etməsi və 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində beynəlxalq aləmdə baş verən dəyişikliklər milli dövlətçilik prinsiplərinə uyğun yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsini ən vacib məsələ kimi ön plana çəkdi. Qısa müddət ərzində dünyanın bir sıra dövlətləri tərəfindən rəsmi surətdə tanınmış Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT üzvlüyünə qəbul edildi.

Azərbaycan dövlətinin xarici siyasət fəaliyyətinin Dağlıq Qarabağda erməni separatizmi və Ermənistanın hərbi təcavüzü ilə dərinləşən ciddi siyasi və iqtisadi problemlərlə müşayiət olunması, onun diplomatiyası qarşısında çox mühüm və həm də mürəkkəb vəzifələr qoydu. Təcavüzün və millətçi separatizmin qarşısını almaq, onların ağır nəticələrini aradan qaldırmaq, dövlətin ərazi bütövülüyünü və təhlükəsizliyini təmin etmək, dünya birliyi ilə siyasi və iqtisadi inteqrasiyaya girmək zərurəti məqsədyönlü, ardıcıl və fəal xarici siyasətin həyata keçirilməsini tələb edirdi. Beynəlxalq birliyi Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulması zəruriliyinə inandırmaq, milli maraqları dünya dövlətlərinin kəsişən və toqquşan maraqları ilə

uzlaşdırmaq, Azərbaycanın müstəqilliyinə və təhlükəsizliyinə beynəlxalq təminat almaq üçün çox ciddi səylər edilməli və gərgin fəaliyyət göstərilməli idi.

Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi və dövlətçilik maraqlarının qorunmasında ölkənin güclü iqtisadi potensialı və əlverişli geosiyasi mövqeyi mühüm əhəmiyyət kəsb edirdi. Bu amillər Azərbaycanın milli dövlətçilik maraqlarına cavab verən səmərəli və məqsədyönlü xarici siyasət kursunun həyata keçirilməsi üçün ilkin əlverişli zəmin yaradırdı. Lakin mövcud ilkin potensialı və əlverişli zəmini reallaşdırmaq, onlardan maksimum bəhrələnmək beynəlxalq aləmdə cərəyan edən proseslərin ciddi araşdırılmasını, Azərbaycanın maraqlarına uyğun düşünülmüş, hərtərəfli əsaslandırılmış və bütün incəlikləri nəzərə alan addımların atılmasını gündəmə gətirmişdi.

1991-ci ilin sonu - 1992-ci ildə Azərbaycanın dünya dövlətləri tərəfindən ardıcıl şəkildə tanınması və diplomatik münasibətlərin yaradılması onun dünya birliyinə sistemli surətdə inteqrasiyasına geniş yol açdı. İkitərəfli siyasi münasibətlərin qurulması iqtisadi və mədəni əlaqələrin inkişafına əlverişli zəmin yaradırdı. Qarşılıqlı faydalı iqtisadi əməkdaşlıq isə öz növbəsində siyasi münasibətlərin dərinləşməsi, qarşılıqlı etimadın güclənməsi yolunda mühüm əhəmiyyət kəsb edir.

1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi "Böyük İpək yolu"nun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı və onun nəticələri Azərbaycanın xarici siyasətinin müstəqillik illərində qazandığı ən mühüm uğurlarından biri kimi qiymətləndirilə bilər.

Avropa Birliyinin TASİS-TRASEKA proqramı çərçivəsində "Böyük İpək yolu"nun bərpası üzrə həyata keçirilən tədbirlər Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində yerləşən bütün ölkələrin inkişafı, onların iqtisadi potensialından daha səmərəli istifadə edilməsi, çoxtərəfli iqtisadi əməkdaşlığın genişlənməsi üçün əlverişli şərait yaradır. Qərblə Şərq arasında mühüm körpü rolunu oynayan Azərbaycanın Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsində aparıcı yer tutması respublikanın dünya ölkələri ilə inteqrasiyasının daha da dərinləşməsinə xidmət edir. Bu isə nəinki iqtisadi, həm də siyasi sabitlik və təhlükəsizlik baxımından böyük əhəmiyyətə malikdir.

Azərbaycan Respublikasının xarici siyasətində dünya dövlətləri ilə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi ilə yanaşı, beynəlxalq və regional təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlığın genişləndirilməsi də mühüm yer tutur.

1992-ci ildən BMT, ATƏT və İKT-nin üzvü olan Azərbaycan Respublikası həyata keçirdiyi ardıcıl siyasət nəticəsində 2001-ci ildə Avropa Şurasına qəbul edilmiş, Avropa Birliyi, NATO və başqa təşkilatlarla sıx əlaqələr yaratmışdır. O, hazırda bu qurumlar çərçivəsində qarşılıqlı faydalı münasibətlərin inkişaf etdirilməsi üçün fəal xarici siyasət yürüdür. Çox mühüm coğrafi strateji məkanda yerləşən Azərbaycan həm özünün, həm də tərəfdaşlarının maksimum bəhrələnməsi üçün hərtərəfli şərait yaradır, milli mənafelərinin və

milli təhlükəsizliyinin təmin olunması istiqamətində zəruri tədbirləri həyata keçirir [6].

Azərbaycanın hazırki beynəlxalq vəziyyəti xarici siyasət sahəsində hər hansı bir qütbə və yaxud istiqamətə açıq nümayiş etdirilən üstünlük verilməsini mümkünsüzləşdirir, balanslaşdırıcı və tarazlaşdırıcı siyasi kurs seçilməsini şərtləndirir.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin konseptual əsasları, məqsədi, prinsipləri və əsas xüsusiyyətləri qeyd etdiyimiz kimi, Azərbaycanın 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiyasında və Ümummilli Lider Heydər Əliyevin və onun siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışlarında öz əksini tapmışdır.

İrəlidə qeyd etdiyimiz kimi, Azərbaycan Respublikasının Konstitusiyasının 10-cu maddəsində göstərilir ki, dövlətimiz başqa dövlətlərlə və xarici aləmlə əlaqələrini beynəlxalq hüquq normaları və ölkəmizin maraqlarını və milli mənafeyini nəzərdə tutan prinsiplər əsasında qurur. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 1993-cü il oktyabr ayının 10-da prezident seçilməsi ilə bağlı keçirilən rəsmi andiçmə mərasimindəki çıxışında qeyd etmişdir ki, "respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mövqeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün ölkələri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək üçün, həm respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir".

Azərbaycan dövlətinin xarici siyasətdə rəhbər tutduğu əsas vəzifələri aşağıdakı kimi xülasə etmək olar:

–ölkənin müstəqillyini, suverenliyini və ərazi bütövlüyünü beynəlxalq aləmdə tanınmış sərhədləri çərçivəsində qorumaq, onun təhlükəsizliyini regional və beynəlxalq təhlükəsizlik sistemi ilə sıx əlaqələndirmək;

–Azərbaycanın bütün beynəlxalq və regional təşkilatlarda təmsil olunması, sivil birgə yaşayış qaydaları ilə tənzimlənən böyük dünya siyasətinə qatılması, beynəlxalq və regional münasibətlərin həllində fəal iştirak etməsi zəminində dünyanın siyasi xəritəsində özünə münasib layiqli yer tutmasına nail olmaq;

–dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri yaratmaq, bu əlaqələrdən ölkəmizin iqtisadiyyatının, elminin və mədəniyyətinin inkişafında, sosial vəzifələrin həllində səmərəli istifadə etmək;

– maraqları Azərbaycanın dövlətçilik və milli mənafeləri ilə uyğun gələn dövlətlərlə tərəfdaşlıq və müttəfiqlik münasibətləri yaratmaq, respublikanın

beynəlxalq mövqeyini və nüfuzunu möhkəmlətmək üçün onların imkanlarından bacarıqla istifadə etməyə nail olmaq;

– ölkənin demokratiya və azad bazar iqtisadiyyatı yolu ilə inkişafına, müstəqil daxili və xarici siyasət yeritməsi üçün əlverişli beynəlxalq şəraitin bərqərar olmasına çalışmaq; əhalinin əsas hüquq və azadlıqlarının qorunmasına yönəlmiş beynəlxalq normaların həyata keçirilməsinə şərait yaratmaq;

– regionda gərginliyin aradan qaldırılmasına və mehriban qonşuluq münasibətlərinin yaradılmasına səy göstərmək;

– Azərbaycana qarşı xarici təzyiqlərin qarşısını alan və ya onları minimuma endirən beynəlxalq himayə mexanizminin yaradılmasına nail olmaq [7].

Bütün bu vəzifələr və onların həyata keçirilməsi ilə bağlı konkret səylər Azərbaycan dövlətinin beynəlxalq, regional və dövlətlərarası münasibətlər sahəsində atdığı praktiki addımlarda, bağlanan diplomatik sənədlərdə öz əksini tapmışdır. Respublikanın xarici siyasətinə xas olan xüsusiyyətlərdən bəhs edərkən beynəlxalq, regional və dövlətlərarası münasibətlərin inkişaf tendensiyasına uyğun çevik, praqmatik və tarazlı siyasət yeridilməsini, qonşu ölkələrlə əlaqələr qurulmasına üstünlük verilməsini, dünya siyasətinə əhəmiyyətli təsir göstərən böyük dövlətlərlə tərəfdaşlıq münasibətlərinin yaradılmasının ön plana çıxarılmasını, onların maraqları ilə Azərbaycanın strateji mənafelərinin uzlaşdırılması zərurətini və sairə kimi mühüm amilləri də xüsusi qeyd etmək lazımdır.

Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşdırılması və prioritet vəzifələrinin müəyyənləşdirilməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun dövründə Azərbaycanın beynəlxalq münasibətlər sistemində iştirakı və özünəməxsus mövqelər qazanması üçün lazımi tədbirlər görüldü, ölkənin xarici aləm üçün kəsb etdiyi maraqlar dairəsi, geosiyasi və iqtisadi əhəmiyyəti düzgün dəyərləndirildi, beynəlxalq aləmin Cənubi Qafqazda, Xəzər regionunda və Azərbaycanda təmsil olunması, üst-üstə düşən, kəsişən maraq dairələri müəyyənləşdirildi. Beynəlxalq münasibətlərin yeni düzəni, dövlətlərarası əlaqələrin prinsipləri, beynəlxalq hüququn təsir gücü və dairəsi, dünyanın böyük dövlətlərinin, regionun aparıcı ölkələrinin və beynəlxalq təşkilatların Azərbaycanla bağlı yürütdüyü və yürüdə biləcəyi siyasət təhlil edildi.

Tam əminliklə demək olar ki, bu gün Azərbaycanın xarici siyasəti Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ölkəmizin milli maraqlarına uyğun olaraq məqsədyönlü və düşünülmüş şəkildə həyata keçirilir. Məhz bu xarici siyasətin nəticəsidir ki, Azərbaycanın beynəlxalq münasibətlərdə mövqeyi günü-gündən möhkəmlənir, dövlətimizin müsbət imici digər ölkələr üçün də bariz nümunəyə çevrilir.

## ƏDƏBİYYAT

1. Həsənov Ə.M. Azərbaycanın xarici siyasəti: Avropa ölkələri və ABŞ (1991-1996). Bakı: Azərnəşr, 1998, 315 s.
2. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı: Qanun, 2009, 67 s.
3. Алиев И.Г. Каспийская нефть Азербайджана. М.: Известия, 2003, 712 с.
4. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995). Bakı: Gənclik, 1996, 140 s.
5. Mehdiyev R. Azərbaycanın inkişaf dialektikası. Bakı: Azərbaycan Milli Ensiklopediyası, 2000, 288 s.
6. Hüseynova H.K. Azərbaycan Avropaya inteqrasiya prosesləri sistemində. Bakı: Hərbi Nəşriyyat, 1998, 280 s.
7. Qasımov M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı: Mütərcim, 1997, 124 s.

## ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ ВНЕШНЕЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНА НА СОВРЕМЕННОМ ЭТАПЕ

**К.Ю.АДЖАМОВ**

### РЕЗЮМЕ

В статье исследуются вопросы теоретических основ внешней политики Азербайджанской Республики на современном этапе. Автор подробно анализирует цель и основные задачи внешней политики Азербайджана как молодого государства. При этом особое внимание уделяется теоретической и практической деятельности общенационального лидера азербайджанского народа Гейдара Алиева в области внешней политики Азербайджана.

**Ключевые слова**: внешняя политика, «Контракт века», международная интеграция, международные отношения

## THE THEORETICAL FOUNDATIONS OF AZERBAIJAN’S FOREIGN POLICY AT THE CONTEMPORARY PERIOD

**A.K.AJAMOV**

### SUMMARY

The article investigates the theoretical foundations of the issues of foreign policy of the Azerbaijan Republic at the present stage. The author precisely analyzes in detail the purpose and main objectives of the foreign policy of Azerbaijan as a young state. Special attention is paid to the theoretical and practical activities of National Leader - Heydar Aliyev in Azerbaijan's foreign policy.

**Key words**: foreign policy, «Century's contract», international integration, diplomatic relations